HEYDƏR ƏLİYEV FONDU

XOCALIYA ƏDALƏT

www.justiceforkhojaly.org

# XOCALI ŞƏHİDLƏRİ 613

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



*Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir.*

Heydər Əliyev

# ÖN SÖZ

Torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda Vətən olur. Şair yaxşı deyib: "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir"....

Şəhid - Torpağın üstünə qanı tökülən, 3 rəngli bayrağın kölgəsində əbədiyyətə qovuşan, Torpağını namus bilib, şərəflə canından keçəndir... Quranda ayə var: Şəhidlər ölməz... Ölməz insanı ağlamazlar...

Bu kitabı yazmaq mənim üçün həm şərəf və eyni zamanda çox ağır oldu. Çünki hər Şəhid anasını, bacı-qardaşını və, ən əsası, övladını dinlədikcə ürəyim köz tək alışıb yandı. 613 Şəhid təkcə onların ailələrinə mənsub deyil, eyni zamanda onlar bütün Azərbaycanın övladlarıdır. Şəhidlərimiz Azərbaycanın şanlı tarixini, qəhrəmanlıq salnaməsini yazmış insanlardır. Onlar haqqında nə qədər kitablar yazılsa, nə qədər onların həyat hekayələrini dinləsək yenə də azdır. Çünki o yaranı sağaltmaq qeyri-mümkündür...

1992-ci il fevral ayının 25-dən 26-na keçən o qanlı, tarixə qara hərflərlə yazılan gecə. Həmin gecə heç nədən xəbərsiz əhalinin yatdığı bir vaxtda erməni vandalları Sovet ordusunun 366-cı motoatıcı alayı vasitəsi ilə Xocalıya hücum etdilər və Xocalını üzük qaşı kimi mühasirəyə alıb, işğal etdilər. Elə həmin gecə Xocalı bir vaxt onu əzizləyən, qoruyan 613 nəfərini itirdi. Əsgər və hərbçilər döyüşər, şəhid olar. Çünki onların qanı ilə yazılar hər şanlı tarix. Bəs o heç nədən xəbərsiz, əliyalın sakinlərin nə günahı var idi? Axı onlar Xocalı sakini olaraqdan yaşamalı, gün güzəran görməli idilər. Ana sözünü deməmiş körpə murdar düşmənin gülləsinə tuş gəlməməli idi. O körpələr indi Azərbaycanın gözəl kadrları, layiqli övladları ola bilərdi. Amma olmadı... Yaxşı, bəs heç doğulmamış, ana bətnində olan körpənin anası ilə birlikdə şəhid olmalarına, qanlarının bir-birinə qarışmalarına nə deməli? Məgər bu qədər dərdə dözmək asandırmı?

Həmin qanlı gecədə erməni vandalları neçə başlar kəsdi, insanları diri-diri yandırdı, dinc əhalinin yaşına, kimliyinə baxmadan əsir götürüb olmazın işgəncələr verdilər. Bu, vəhşiliyin ən yüksək həddi idi. Öldürməklə, kəsməklə ürəkləri soyumadı, meyitlərə belə işgəncələr verdilər. Həmin gecə onlar cismən ölmədi... Onlar ümidlərini, xəyallarını, gələcək planlarını özləri ilə birgə məzara apardılar.

Bu həmin kitabdır - 613 Şəhidin həyatının yer aldığı kitab. Bunu yazarkən bircə amal və məqsədlə yazdım. Heç zaman unutmayaq və unutdurmayaq... Durmadan çalışaq, Şəhidlədimizi dünyaya tanıdaq, onların başına gələn müsibətləri dünyaya çatdıraq.

Tarixən Azərbaycanın başının üstünü dəfələrlə qara bulud aldı... Lakin biz, Azərbaycan xalqı yenə də "Vətən sağ olsun", "Bayrağımız ucalarda dalğalansın", "Millətimizə zəfər, Vətənimizə qələbə nəsib olsun" deməkdən yorulmadıq, yorulmayacağıq da.

Qarabağımız erməni vandallarından azad olunduqda, Şəhidlərimizin qanı axmış torpaqda Azərbaycanımızın 3 rəngli bayrağı dalğalandıqda onların ruhu bizi bağışlayacaqdır. Biz də öz növbəmizdə onların qarşısında baş əyib ürəklə "Qisasınızı aldıq" deyəcəyik.

Qarabağ Azərbaycanındır və Azərbaycanın da olacaq. Bu gerçəyi heç kəs dəyişdirə bilməz!

Allah Şəhidlərimizə Rəhmət Eləsin!

Dürdanə Ağayeva

## ŞƏHİDLƏR

Gözümün önündədir həmin o qarlı gecə,
Unutmaram, elə bil olubdur lap indicə!
Ermənilər Vətənə qəfil hücum edincə,
Ölüm ilə üz-üzə dayandılar ərənlər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Qış gəldi ömrümüzə, gözləyərək baharı,
Dağıldı yurd-yuvalar, ömürlər oldu yarı,
Mənfur olan düşmənin xəyanəti, israrı,
Sayəsində qırıldı say-seçmə ər igidlər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Qeyrət əzmi, qüruru əyilmədi heç nəyə,
Vətəni qorumaqçun sipər oldu gülləyə,
Millətinin gözündə ucaldılar zirvəyə,
Hər bir qarış torpağa canı qurban verdilər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Malik güllə yarası aldı mühasirədə,
Qətiyyətlə döyüşdü, dayanmadı yenə də,
Təvəkkülün son sözü Vətən oldu dilində,
Göz qırpmadan ölümün üzərinə getdilər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Mehdi, Faiq, Vüqarın təhsili qaldı yarı,
Vətənə sevgi idi Rüfətin son qərarı,
Düşmən qətlə yetirdi nə qədər cavanları,
Heç birisi düşmənə yenib əyilmədilər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!



Murad üz-üzə gəldi düşmənin dəstəsiylə
Silah yerə qoymadı məğrur əqidəsilə
Yaddaşlara yazıldı Həmid cəsarətilə
Düşmənə qan uddurdu Fizulilər, Əliflər
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Ağayar da, Şafa da ahıl, yaşlı çağında,
Şəhadətə qoşuldu öz ulu torpağında,
Qar al qana boyandı dərəsində, dağında
Canı verib torpağa Vətənə can dedilər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Altı yüz on üç nəfər Şəhid verdi Xocalı,
Uşaq, qoca, həm cavan, həm müəllim, ziyalı,
El-oba qaçqın oldu, Vətən qəlbi qubarlı,
Gözləri yollardadır, narahatdır qəbirlər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Vətənpərvərlik irsini miras qoydular bizə,
Hər bir şəhidin adı həkk olub qəlbimizə,
Zəfər çalıb dönəndə doğma yerlərimizə,
Şad olacaq ruhları, sevinəcək qəbirlər.
Ölməyibdir, heç zaman, ölməyəcək Şəhidlər!

Sahib Ağayar oğlu İmani

*Mən əminəm ki, gün gələcək, Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər.*

İlham Əliyev

# SİLAHLI ERMƏNİ QÜVVƏLƏRİNİN HÜCUMUNDAN ƏVVƏLKİ XOCALI

Xocalı... Xocalı deyəndə göz önündə bir cənnət yaranır. Yaşıl meşələr, laləli düzlər, uca dağlar insanın ruhunu oxşayırdı. Hər tərəfi dağ və meşəliklərlə əhatə olunan Xocalı strateji mövqeli idi. Ağdam-Şuşa, Ağdam-Xankəndi, Əsgəran-Xankəndi magistral şose yolları və hətta Bakı-Xankəndi dəmir yolu xətti də Xocalıdan keçirdi. Qarabağda yeganə aeroport Xocalıda yerləşirdi.

1991-ci il noyabr ayının 26-da rayon statusu aldıqdan sonra Xocalı sürətlə inkişaf etməyə başlamışdı. Burada böyük xəstəxana tikilir, yaşayış evləri inşa edilir, beş və doqquz mərtəbəli binalar əhaliyə təhvil verilirdi. Qarabağda gərgin vəziyyətə baxmayaraq Xocalı əhalisi heç də ruhdan düşmürdü. Yolun kənarında hətta böyük Rabitə Qovşağı binası inşa olunmaqda idi. Tikinti işləri güclənirdi və Xocalı böyüyürdü. Fəaliyyətdə olan tikiş fabrikləri dayanmadan işləyir və istehsal etdiyi malları digər rayonlara və Bakıya göndərirdilər. Xocalıda yerləşən böyük ipək fabriki də öz işini davam edirdi. Xocalıda gedən quruculuq işlərini görən düşmənlər narahatçılıq keçirir və hər vəclə buna mane olmağa çalışırdılar. Öz xain xislətlərinə sadiq olan separatçı ermənilər Qarabağ münaqişəsini böyüdür və xainliklərini bir daha sübut edirdilər.

1988-ci ildən Azərbaycanda yaranmış Qarabağ gərginliyi get-gedə böyüyür, güclənir, genişlənirdi. Erməni separatçıları müxtəlif təxribatlar törədir və açıq-aydın müharibəyə hazırlaşmağa başlayırdılar.

1988-ci ildə Xankəndində ermənilər "Qarabağ Ermənistanındır" şüarları altında mitinqlər keçirir, orada yaşayan azərbaycanlıları sıxışdırır, hədə-qorxu gələrək yaşadıqları evlərindən çıxarıb qovurdular. Doğma ev-eşiklərini məcburən tərk edən azərbaycanlılar Ağdam, Şuşa, Xocalı, Bakı və digər şəhərlərə köçürdülər.

1988-ci ildə baş vermiş hadisələrin nəticəsi olaraq Xankəndindən və Ermənistandan qovulan qaçqın və məcburi köçkünlər Xocalıda fin evləri ilə təmin olunub yaşayırdılar. Bunlarla yanaşı Özbəkistandan qaçqın düşmüş 54 məshəti türkü də ailələri ilə bərabər Xocalıya köçürülmüşlər. Beləliklə də, Xocalının əhalisi 7000 nəfərə çatmışdır.

Yerli əhaliyə qarşı düşmənçilik durmadan şiddətlənir, münaqişə ərazisi getdikcə böyüyürdü. Erməni daşnakları tərəfindən Xocalıya ilk hücum 1988-ci il sentyabr ayının 18-də baş verdi. Döyüşə və müharibəyə hazır olmayan xocalılar buna baxmayaraq mənfur düşmənin qarşısını kəsmiş və məğlub etmişlər. Bir qarış torpağımıza belə ayaqları dəyməyən düşmən geri çəkilməyə məcbur olmuşdur. Bu hücumda erməni daşnaklarının niyyəti xocalıları qorxuya salmaq, çaxnaşma yaratmaq idi.

Güclü müqavimətlə rastlaşan ermənilər bundan sonra bir çox təxribatlara əl atırdılar. Əsgəran, Xankəndi istiqamətində keçən Xocalı maşınlarını, Ağdam, Şuşa avtomobillərini daşla vururdular. Maşınlarının daşla vurulub əzilməsi azərbaycanlıları əsla qorxutmasa da, vəziyyətin gərginləşməsi biz xocalıları böyük şübhə altına atırdı. Xocalı İcra hakimiyyətinin keçmiş başçısı Elman Məmmədov əhaliyə ayıq-sayıq olmağı tapşırır və Xocalı polisini gücləndirmək göstərişini verir. Lakin hamı hiss edirdi ki, daha güclü tədbirlərin görülməsinə ehtiyac vardı, çünki düşmən gecələr atəş açmağa başlamışdı. Xocalı hər gecə Xanabad, Xoramurd, Əsgəran, Xankəndi istiqamətlərindən avtomat tipli silahlarla atəşə tutulurdu. Xocalı əhalisi isə bu elan edilməmiş müharibəyə tamamilə hazırlıqsız idi.

1991-ci ilin sentyabr ayı idi, ermənilər hər gecə dayanmadan atəş açır və "Alazan", "Qrad" tipli raketlərdən Xocalıya od yağdırırdılar. Hər kəs – qoca, qadın, uşaq zirzəmilərdə gizlənməyə məcbur olurdu. Evlər yanır, təhlükəli vəziyyət yaranırdı. Sentyabrın 13-də atılan "Alazan" raketinin mərmisi Xocalı sakini Muradov Lətifin evinə düşmüşdür. Bunun nəticəsində onun oğlu Zahid Muradov şəhid olmuşdur. Ən dəhşətlisi o idi ki, Zahid Lətif oğlu Muradov ondan cəmi 6-7 ay öncə ailə qurmuşdur. Şəhid olarkən həyat yoldaşı Reyhan Əkbər qızı Muradova hamilə idi. Beləcə, Xocalı ilk şəhidini torpağa tapşırdı.

Bundan sonra şəhid vermiş xocalılar artıq silah və hərbi texnika tələb edirdilər. Hər gecə atışmaların, "Alazan" və "Qrad" tipli raketlərdən açılan atəş səsləri bizi dəhşətə gətirirdi. Qorxu içində yaşayırdıq. Dəhşətli atışmalara baxmayaraq, əhalinin hamısı – uşaqdan tutmuş böyüyə qədər Xocalıda idi. Heç kimin Xocalını tərk etmək niyyəti yox idi. Biz xocalılar öz yurdumuza, torpağımıza bağlı insanlar idik. Mən Xocalı telefon qovşağında çalışırdım, telefonçu idim. Biz hər gecə ermənilərin Xocalını atəşə tutması barədə Şuşa, Ağdam və Bakıya məlumatlar çatdırırdıq. Biz telefonçuların işi həm çətin, həm qorxulu, həm də məsuliyyətli idi. Gecə-gündüz öz rabitəmizi çox ciddi şəkildə nəzarətdə saxlayırdıq. Hətta düşmənlərimiz bizim rabitəyə qoşulur, hədə-qorxu gəlir, bizləri təhqir edirdilər.

Bu çətin və gərgin günlərdə Bakıdan Aqil Quliyevin başçılıq etdiyi 28 nəfərdən ibarət könüllü dəstə Xocalıya köməyə gəldi. Amma çox təəssüflər olsun ki, gələn könüllülərin avtomatdan başqa heç bir hərbi sursatı yox idi.

Bu arada Xocalıda Özünümüdafiə Batalyonu dəstəsi yığılmağa başladı. Həmin batalyona komandirlik etmək Tofiq Mirsiyab oğlu Hüseynova tapşırıldı. Bu işə çox məsuliyyətlə yanaşan Tofiq Hüseynov öz dəstəsinin sayını artırmağa başladı. Əli silah tutan hər kəs batalyona üzv olurdu.

Xocalı aeroportu da öz iş rejimini gücləndirmişdir. Aeroportun komendantı Əlif Hacıyev öz işçilərinə ciddi tapşırıqlar verir və aeroport polisinin işçi heyətini gücləndirirdi. Xocalılar bir nəfər kimi gecə-gündüz doğma torpaqlarının müdafiəsinə canla-başla hazır idilər. Çatışmayan ancaq döyüş sursatı, hərbi texnika idi. Biz, rabitəçilər, hər zaman Xocalı ilə maraqlanan Ağdam, Şuşa, Bakı və həmçinin digər rayonlara Xocalının çətinlikləri, gərgin və qorxulu gecələri barədə danışır və Xocalıya kömək edilməsinin vacib olduğunu söyləyirdik. Hətta mən hər zaman deyirdim ki, Xocalı Qarabağın onurğa sütunudur. Əgər Xocalının başına bir bəla gəlsə, düşmən bütün Qarabağı işğal edə bilər, çünki aeroport ermənilər üçün çox önəmli idi. Düşmən isə günü-gündən daha da azğınlaşırdı. İş o yerə çatmışdı ki, Əsgərandan keçən maşınlarımıza belə atəş açılırdı, amma buna baxmayaraq, xocalılar gediş-gəlişi dayandırmırdılar.

Lakin qorxu hissimiz də günü-gündən artırdı. O vaxtadək nə bir uşaq, nə bir böyük Xocalıdan çıxarılmamışdı. 1991-ci il noyabr ayının 1-də Xocalıya məxsus olan UAZ markalı maşın Əsgərandan keçərkən düşmən ona atəş açmış, maşının sürücüsü Habil Möhsüm oğlu Abışov güllələnərək şəhid olmuş, qardaşı Etibar Möhsüm oğlu Abışov və xalası Matan Abışova isə maşında ağır yaralanmışdılar. Möhsüm kişi şəhidimiz Habili və yaralıları Əsgərandan elə həmin gün çıxartmağa nail olmuşdur. Bu o demək idi ki, artıq azğınlaşmış düşmən heç kimdən çəkinmədən müharibə aparır və bütün Qarabağı ələ keçirmək niyyətini açıq-aşkar nümayiş etdirirdi.






Xocalıya Bakıdan gələn komandir Aqil Quliyevin başçılıq etdiyi dəstə, Xocalı Özünümüdafiə Batalyonu, Xocalı aeroportunun komendantı Əlif Hacıyevin dəstəsi və eyni zamanda bütün xocalılar şəhərin kənarlarında xəndək qazaraq postlar qururdular. Xocalı İcra Hakimiyyətinin başçısı Elman Məmmədov hər gün komandir və döyüşçülərlə toplantı keçirərək tapşırıqlarını verirdi. Gündəlik atışmalar və hər gecə atılan "Alazan" və "Qrad" tipli raketlərdən açılan atəş səsi bizləri təşvişə salırdı. Qadın və uşaqlar vahimə içərisində zirzəmilərdə gecələməli olurdular.

## XOCALI MÜHASİRƏDƏ

1991-ci il oktyabr ayından Xocalı mühasirəyə alındı. Yollar bağlandı, Xocalının vəziyyəti ağırlaşdı. Ermənilər Əsgəran qalasını böyük beton daşlarla hörüb orada özləri üçün post qurmuşdular. Hər iki tərəfdən yollarımız bağlandıqdan sonra biz xocalıların ümidi ancaq aeroporta və helikopterə qaldı. Ermənilər Xocalının işıqlarını kəsir, əhali gecələr lampa və şamlardan istifadə etməli olurdu. Blokada vəziyyəti bizləri daha çətin durumlara salmışdı. Xocalıda ərzaq qıtlığı, çörək çatışmazlığı başladı. Bunu görən İcra hakimiyyətinin başçısı Elman Məmmədov helikopterlə Ağdama getmiş və oradan un, ərzaq, yanacaq və silah gətirməyə nail olmuşdur. Elman Məmmədovun göstərişi ilə un ailə üzvlərinin sayına görə paylanırdı. Çünki blokada şəraitinə qədər, dediyim kimi, heç bir nəfər də olsun Xocalıdan çıxmamışdı, hər kəs öz evində idi. Ancaq vəziyyət günü-gündən gərginləşirdi. Artıq qadınların, uşaqların, qocaların, xəstələrin və hamilə qadınların Xocalıdan çıxarılması vacib idi. Blokada şəraitində atışmalar daha da güclənmişdi. Səhərə qədər atışmaların ardı-arası kəsilmirdi. Məlum məsələ idi ki, erməni faşistləri Xocalını blokadaya salaraq vəziyyəti gərginləşdirib Xocalını işğal etmək niyyətində idilər. Mən, rabitəçi olduğum üçün, yaranmış durumdan xəbərdar idim. Biz ancaq Ağdam, Şuşa və Bakıdan kömək istəyirdik. Xocalı İcra hakimiyyətinin başçısı Elman Məmmədov telefon vasitəsilə müxtəlif rayonlarla və həmçinin Bakıyla hər gün əlaqə saxlayır və Xocalıda yaranmış vəziyyətdən, aclıqdan, silah çatışmazlığından, yanacağın yoxluğundan gileylənirdi. Çarəsiz qalmışdıq, heç bir ümidimiz yox idi. Ara-sıra helikopter gəlirdi, onun vasitəsilə bir neçə qadın və uşağı şəhərdən çıxarmaq mümkün olurdu. Xocalıların iki ümid yeri vardı: aeroport və rabitə qovşağı. Biz telefonçular əziyyətə və qorxuya baxmayaraq növbə ilə öz postumuzda olurduq. Rabitədə çalışan telefonçular – Xudayarova Reyhan, Hacıyeva Brilyant, Behbudova Gülbahar və bir də mən idim. Biz ancaq ratsiya və telefon vasitəsilə hərbçilərimizlə, komandirlərlə, aeroportla tez-tez əlaqə saxlayır, vacib xəbərləri çatdırırdıq. Xocalıda işıq olmadığı üçün biz rabitəni generator vasitəsilə işlədirdik. Amma hələ də bu gərgin vəziyyət xocalıları ruhdan salmırdı. Oğullarımız gecələr keşik çəkərək postlarda durur, yatıb dincəlmədən gündüzlər öz işlərində olurdular.

Vəziyyət isə gündən-günə qorxulu həddə çatırdı. Biz, xocalı əhalisi, öz döyüşçülərimizə güvənsək də, onların avtomatdan başqa hərbi texnikasının olmadığını bilirdik. Hətta bəzən patron çatışmazlığı halları da olurdu. Dəfələrlə Əlif Hacıyev, Tofiq Hüseynov və Elman Məmmədov helikopterlə Ağdama və Gəncəyə uçub silah və patron gətirmişdilər. Düşmən helikopterlərə də atəş açdığından son aylar helikopter də gec-gec gəlirdi. Aylar keçir, Xocalıda gərgin anlar yaşanır, ərzaq qıtlığı, çörək və un məmulatlarının yoxluğu insanları təşvişə salırdı.

Yanvar ayı idi. Əhali aclıqdan əziyyət çəkirdi. Silah-sursatların çatışmaması, hərbi texnikamızın yoxluğu bizi tələşləndirirdi. Düşmənin açdığı atəşlərdən isə onların hər növ silah və hərbi texnika ilə təmin olunduğu məlum olurdu. 1992-ci il



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.